Azərbaycan Arxeologiyası Volume 25 № 2 2022, 8-20
Khazar University Press DOI: 10.5782/2218-0346.2022.25.2.8

# Arxeoloq Bəhlul İbrahimlinin 70 illik yubileyinə

**Elvin Əliyev**
aliyevelvin@yandex.ru
AMEA Arxeologiya, Etnoqrafiya və Antropologiya İnstitutu

**Açar Sözlər:** Bəhlul İbrahimli, Naxçıvan, Xaraba Gilan, Ordubad, arxeoloji ekspedisiya, irs, Aza

İbrahimli Bəhlul İmran oğlu 12 iyul 1952-ci ildə Ordubad rayonu Sabir kəndində anadan olub. Orta təhsilini Sabir kənd məktəbində alan Bəhlul İbrahimli 8-ci sinifi bitirdikdən sonra Bakı şəhər 5 saylı tibb məktəbinə qəbul olunmuşdur. 1969-cu ildə həmin tibb məktəbini feldşer-laborant ixtisaslı mütəxəssis kimi bitirmişdir.

Əmək fəaliyyətinə Ordubad rayon Mərkəzi Xəstəxanasında tibb qardaşı vəzifəsində başlamış, daha sonra Culfa rayon Mərkəzi Xəstəxanasında laboratoriya müdiri vəzifələrində çalışmışdır. İlkin təhsilinin tibb üzrə olması gələcək arxeoloqa çox kömək olub. Qədim tarixə malik Naxçıvan ərazisi, yaşadığı Gilançay hövzəsinin tarixi və arxeoloji abidələrlə zənginliyi onda tarix elminə, arxeologiyaya ciddi maraq yaratmışdı. Öz başlanğıcını Qapıcıq dağının ətəklərindən götürən Gilan çayının Araz çayına qovuşduğu düzənlikdə maddi-mədəniyyət nümunələri ilə zəngin qədim yurd yerləri, yaşayış məskənləri, nekropollar, ibadətgahlar və s. mövcuddur. Hələ uşaq vaxtlarından Bəhlul öz yaşıdları ilə çox vaxt bu qədimliyin içərisində oynayıb, canlı tarixə öz əlləri ilə toxunublar.

Tarix elminin sirlərini dərindən öyrənmək məqsədilə Bəhlul İbrahimli 1971-ci ildə Y. Məmmədəliyev adına Naxçıvan Dövlət Pedaqoji İnstitutunun Tarix fakültəsinə daxil olur və 1975-ci ildə həmin ali təhsil müəssisəsini fərqlənmə diplomu ilə bitirir. 1975-1979-cu illərdə Ordubad rayonunun Sabir kənd məktəbində tarix müəllimi işləyir. Dərs dediyi şagirdlərə milli-mənəvi dəyərlərimizi, şanlı dövlətçilik ənənələrimizi, mübarizliyimizi, irsimizə sahib çıxmağı təbliğ edir. 1975-ci ildə Vəli Əliyevin rəhbərliyi altında “Naxçıvan arxeoloji ekspedisiyası” tərkibində Gilançay hövzəsində arxeoloji tədqiqatda iştirak edir və bu hadisə onun gələcək fəaliyyətini müəyyənləşdirməkdə əsas olur. Elə həmin il Vəli Əliyevin tövsiyəsi ilə Azərbaycan SSR EA

Tarix İnstitutunun aspirantura şöbəsinə sənədlərini təqdim edir və arxeologiya ixtisası üzrə aspiranturaya qəbul olunur.

Gənc aspiranta təqdiqat aparması üçün epiqrafikadan mövzü verilir. Lakin, Xaraba Gilan sirlərini üzə çıxara bilmək həvəsi 24 yaşlı Bəhlulu rahat buraxmır. Yenə də "Naxçıvan arxeoloji ekspedisiyasının" rəisi arxeoloq Vəli Əliyevlə məsləhətləşmə aparır. Tədqiqat mövzusu dəyişdirilir. Ona "Xaraba Gilan şəhər yerinin arxeoloji tədqiqi" mövzusu seçilir. Ordubad rayonu ərazisində Araz çayından 4 km məsafədə, Gilançayın sol sahilində, Kələntər-Dizə kəndi yaxınlığında yerləşən Xaraba Gilan şəhər yerində hələ ilk antik dövrdən başlayaraq şəhər mədəniyyəti formalaşmışdır. Orta əsrlərdə isə bu şəhər Azərbaycanın mühüm sənətkarlıq və ticarət mərkəzinə çevrilmişdir.

1979-cu il Bəhlul İbrahimlinin həyatında əlamətdar hadisələrlə yadda qalır. O, Azərbaycan SSR EA Naxçıvan Elm Mərkəzinə kiçik elmi işçi vəzifəsinə işə qəbul olunur. Elə həmin ilin yayında Özbəkistan EA Arxeologiya İnstitutunun Əfrasiyab şəhər yerində Q.V. Şişkinanın rəhbərliyi ilə aparılan qazıntılarda dəstə rəhbəri kimi iştirak edir.

1979-cu ildə Xaraba Gilan şəhər yerində Səlcuqlar dövrünə aid sərdabə "qara arxeoloqlar" və ya "dəfinə axtaranlar" tərəfindən dağıdılır. Bu hadisə elmi ictimaiyət arasında ciddi narazılığa səbəb olur. Xaraba Gilan şəhər yerinin tədqiqatına münasibət dəyişir. 1980-ci il Xaraba Gilan tədqiqatlarında yeni bir mərhələnin başlanğıcı olur. O zamankı ölkə rəhbərliyinin göstərişi ilə abidənin qorunması və orada tədqiqatların genişləndirilməsi ilə bağlı tapşırıq verilir. Azərbaycan SSR EA Tarix İnstitutu nəznində arxeoloq Qardaşxan Aslanovun rəhbərliyi ilə "Xaraba Gilan arxeoloji ekspedisiyası" təşkil olunur. Xaraba Gilanda planlı və ardıcıl arxeoloji tədqiqatlara başlanılır. Bəhlul İbrahimli "Xaraba Gilan arxeoloji ekspedisiyasının" rəis müavini təyin edilir.

"Xaraba Gilan arxeoloji ekspedisiyası" tədqiqatları iki abidədə: Muncuqlutəpə nekropolunda və Xaraba Gilan şəhərgahının mərkəzi hissəsində aparmışdır. Orta əsrlərə aid edilən Xaraba Gilan şəhər yerində tədqiq edilən sahə 5000 m$^2$ olmuşdur. Burada yaşayış evləri, sərdabə və karvansaralar tədqiq edilmiş, ilk dəfə mədəni təbəqənin stratiqrafiyası müəyyənləşdirilmiş, həmçinin tikililərin xarakteri, sənətkarlığın səviyyəsi və şəhər tarixinin müxtəlif inkişaf mərhələlərinə aid qalıqlar aşkar edilmişdir.

Azərbaycan SSR Elmlər Akademiyasının o zamankı prezidenti akademik Həsən Abdullayevin azərbaycanlı tədqiqatçıların öz elmi təcrübələrini artırmaları üçün SSRİ-nin müxtəlif elmi müəssisələrinə ezam olunmaları ilə

bağlı xüsusi göstərişi vardı. Bəhlul İbrahimli də bu layihədən yararlananlardan olur. O, 1980-ci ildə Azərbaycan EA Rəyasət Heyətinin qərarı ilə SSRİ EA Arxeologiya İnstitutuna elmi təcrübəyə göndərilir. Yeni elmi rəhbəri Xəzər türklərinin ən görkəmli tədqiqatçılarından olan professor S.A.Pletnyova təyin edilir. S.A.Pletnyovanın rəhbərlik etdiyi sektorda gökəmli arxeoloq, türkoloq İ.L.Kızlasovla, RF Arxeologiya İnstitutunun indiki direktoru, akademik A.Makarovla, G.Y.Afanasyevlə birlikdə çalışır, arxeologiya elminin sirlərini öyrənir, bir neçə arxeoloji ekspedisiyanın tərkibində qazıntılarda iştirak edir. Moskva şəhərində elmi təcrübədə olduğu müddətdə də hər qazıntı mövsümü Ordubada gəlir, Xaraba Gilan qazınıtılarında rəis müavini kimi öz işini davam etdirirdi.

1982-1983-cü illərdə SSRİ Elmlər Akademiyasının Arxeologiya İnstitutunun Sovet-Bolqar-Macar Beynəlxalq arxeoloji ekspedisiyasının Mayat şəhər yerində apardığı qazıntılarda dəstə rəhbəri kimi iştirak edir. 3 ölkədən 40-a yaxın arxeoloqun iştirak etdiyi ekspedisiyada ona ayrılan xüsusi qazıntı sahəsində tədiqiqatı uğurla bitirən Bəhlul İbrahimli qazıntı rəhbərlərinin təşəkkürünü alır. Beynəlxalq ekspedisiyada işirakı, təcrübəli arxeoloqlarla ünsiyyətdə olması onun gələcək elmi fəaliyyətində ciddi bir dəstək olur, peşəkar arxeoloq kimi formalaşmasına kömək edirdi.

1985-ci ildə M.V.Lomonosov adına Moskva Dövlət Universitetində "Orta əsr Xaraba Gilan şəhəri" mövzusunda namizədlik dissertasiyasını uğurla müdafiə edən Bəhlul İbrahimli tədqiqatlarını davam etdirmək üçün yenidən Naxçıvana qayıdır. Elmi fəaliyyəti ilə yanaşı, 1987-1989-cu illərdə Respublika Xalqlar Dostluğu Sarayının Naxçıvan filialının müdiri vəzifəsini də həyata keçirir.

1989-cu ilin iyul ayından dekabr ayına qədər Azərbaycan SSR Elmlər Akademiyası Milli Münasibətlər İnstitutunun Elmi Əlaqələr və Biblioqrafiya şöbəsində baş elmi işçi vəzifəsində çalışır. 1990-cı ilin yanvar ayında Azərbaycan SSR EA Rəyasət Heyətinin qərarı ilə Tarix İnstitutunun Arxeologiya və Etnoqrafiya Sektoruna köçürülür. 1993-cü ildə yeni qurulan AMEA Arxeologiya və Etnoqarfiya İnstitutunun "Antik dövr arxeologiyası" şöbəsində aparıcı elmi işçi vəzifəsində işə başlayır.

1997-ci ildə Manfred Korfmanın dəvəti ilə, onun rəhbərliyi altında aparılan Troya şəhəri qazıntılarında iştirak edir. Burada Türkiyəli və əcnəbi arxeoloqlarla ünsiyyətdə olur, çöl tədqiqatlarında tətbiq olunan yeni metodları mənimsəyir.

1997-2002-ci illər Bəhlul İbrahimlinin həyatı yenidən Moskva şəhəri ilə bağlı olur. Əsas iş yeri saxlanılmaqla, elmlər doktoru işi üzrə elmi tədqiqatlar aparmaq üçün Rusiya EA Arxeologiya İnstitituna doktoranturaya göndərilir. 2000-ci ildə Xaraba Gilan şəhər yerində apardığı tədqiqatlarının nəticələrinə həsr olunmuş kitabı Moskvada nəşr olur.

2005-ci ildən etibarən mən də Bəhlul İbrahimlinin rəhbərliyi altında Xaraba Gilan arxeoloji ekspedisiyasının üzvü kimi Ordubad ərazisində aparılan tədqiqatlara qoşuldum. Həm qazıntı zamanı, həm də kameral işlər və dissertasiya mövzusu üzərində işləyərkən Bəhlul müəllimlə daha sıx ünsiyyətdə oldum. Onun istər insani keyfiyyətləri, istər rəhbər, istərsə də gənclərə ixtisası sevdirmə və öyrətmə bacarıqlarının ən yüksək səviyyədə olduğuna şahidlik etdim. 2005-ci ildə gənc tədqiqatçı kimi qoşulduğum “Xaraba Gilan” arxeoloji ekspedisiyasında, 2020-ci ildən etibarən 2-ci dəstənin rəhbəri kimi fəaliyyətimi davam etdirirəm.



**Şəkil 1.** Bəhlul İbrahimli Türkiyədə Efes abidəsində

Arxeoloq Bəhlul İbrahimlinin elmi fəaliyyətini və apardığı çöl tədqiqatlarını şərti olaraq 2 mərhələyə bölə bilərik: 1970-ci illərin sonundan başlayaraq, 1990-cı ilə, Sovetlər Birliyinin dağılmasına qədər olan birinci mərhələ və 2004-cü ildən başlayan və bu gün də davam edən ikinci mərhələ.

Bəhlul İbrahimlinin Xaraba Gilan arxeoloji ekspedisiyasının rəis müavini olduğu birinci mərhələdə Xaraba Gilan şəhər yeri ilə yanaşı həm də ətrafındakı ərazilərdə arxeoloji tədqiqat işləri aparılmış, nəticədə e.ə. III-I minilliklərə aid zəngin materiallara malik olan bir neçə nekropol və yaşayış yeri tədqiq edilmişdir. Bunlar Plovdağ, Muncuqlutəpə, Dəlmətəpə, Mərdangöl, Xalı Keşan, Şomudərə və digərləridir.

1980-1984-cü illərdə Xaraba-Gilan şəhərində aparılan arxeoloji qazıntılar zamanı burada daşdan və kərpicdən tikilmiş yaşayış evləri, karvansaralar, məscid, türbələr və digər tikili qalıqları aşkar edilmişdir. Bundan əlavə tədqiqatlar zamanı üzərində arami yazısı, kufi və nəsx xətlərlə yazısı olan keramika nümunələri, şüşə və metal məmulatlar və s. tapılmışdır. Əldə edilmiş zəngin arxeoloji materiallar Xaraba Gilanın XII-XIV əsrlərdə mövcud olmuş sənətkarlıq və ticarət həyatını öyrənməyə imkan vermişdir.

Xaraba Gilandan əldə edilmiş numizmatik materiallar içərisində Arşakilərə aid gümüş dirhəm, Roma qızıl pulları, Sasani pulları, Abbasilərə və Samanilərə aid qızıl pullar, Bizans, Eldənizlər və Hülakilərə aid pullar aşkar edilib. Toplanan materiallar içərisində Atabəylərə aid mis pullar üstünlük təşkil edir.

Aşkar edilən materiallar tədqiqatçılara belə bir nəticəyə gəlməyə əsas vermişdir ki, Xaraba Gilan orta əsrlərdə Azərbaycanın mühüm ticarət və sənətkarlıq mərkəzlərindən biri olmuşdur. Heç təsadüfi deyil ki, şəhərin XI-XIII əsrə aid tədqiq olunmuş karvansara ümumdünya əhəmiyyətli abidələr siyahısına daxil edilmişdir.

Ekspesiyanın keçən əsrin 80-ci illərinin ikinci yarısında Xaraba Gilan şəhər yerinin ətraf ərazilərində yerləşən e.ə. II minilliyin sonu – I minilliyin əvvəllərinə aid Muncuqlutəpə, Xalı Keşan və Mərdangöl nekropollarında tədqiqatları da uğurlu olmuşdur. Xüsusilə 1986-1989-cu illərdə Plovdağ nekropolu və yaşayış yerində aparılan tədqiqatları qeyd etmək lazımdır. Bunu da xatırladaq ki, Bəhlul müəllimin doğma Sabir kəndi ərazisində qədim dövrə aid bir neçə abidə: 1977-1978-ci illərdə Sumbatan – I, Sumbatan – II yaşayış yerləri, 1983-1984-cü illərdə Sumbatan nekropolu və 2003-cü ildə Dəyirman dağı və Car nekropolları qeydə alınmışdır. Bu abidələr e.ə II minilliyin əvvəlindən başlayaraq – I minilliyin ortalarınadək olan dövrü əhatə edir. Sabirkənd nekropolu orta tunc dövrünə, e.ə. XVI-XIV əsrlərə aid edilmişdir.

1990-cı ildə ölkədə baş verən məlum siyası hadisələrin təsiri ilə bölgədə aparılan arxeoloji tədqiqatlar müvəqqəti olaraq dayanır. Bölgədə yeni

tədqiqatların bərpa olunacağı dövrə qədər Bəhlul İbrahimli əsasən materialların kameral işlənməsi, kitabların və məqalələrin yazılması ilə elmi fəaliyyətini davam etdirir.

2004-cü ildə Bəhlul İbrahimli Xaraba Gilan arxeoloji ekspedisiyasına rəis təyin olunur, bölgədə arxeoloji qazıntılar yenidən bərpa edilir. Cünmüzədək davam edən bu mərhələdə Bəhlul İbrahimlinin rəhbərliyi ilə Xaraba Gilan və Aza şəhər yerlərində, Plovdağ arxeoloji abidələr kompleksində, Rəsul dərəsində, Dəlmə qalasında, Sumbatan, Bal dərəsi yaşayış yerlərində və digər abidələrdə tədqiqatlar aparılmışdır. Plovdağ arxeoloji abidələr kompleksinə Eneolitdən başlayaraq Dəmir dövrünə qədər uzun bir xronoloji dövrü əhatə edən iki yaşayış yeri, üç nekropol, məbəd və digər təyinatlı tikililər daxildir. İlkin arxeoloji qazıntılara əsasən e.ə. XVIII-XIII əsrlərə aid edilən Plovdağ-2 nekropolunun sonrakı tədqiqatlarla çoxtəbəqəli abidə olması müəyyən edildi. Belə ki, alt mədəni təbəqə Erkən Tunc dövrünə aid yaşayış yeri, üst mədəni təbəqə isə Orta və Son Tunc dövrünə aid qəbirlər aşkarlandı. Plovdağ-2 nekropolunun qəbirləri əsasən kurqanaltı daş qutu və torpaq qəbirlərdən ibarətdir. Nekropolda indiyədək 100-ə yaxın qəbir tədqiq edilib. Plovdağ qazıntıları Tunc və İlk Dəmir dövrü bölgədə mövcud olmuş dəfn adətinin öyrənilməsi, bu adətlərin digər regionlara qarşılıqlı şəkildə təsiri, bölgə əhalisinin sonrakı əsrlərdə axirət dünyasına inamı və s. izlənilməsi baxımından aktuallığı və özünəxsusluğu ilə seçilir.


a


b

**Şəkil 2.** Ordubad rayonu. Plovdağ nekropolunda tədqiqat zamanı (Avqust 2022-ci il).

2008-ci ildə Sabir kəndi ərazisində, Gilan çayın sahilində yerləşən "Sumbatan" abidəsində aparılan arxeoloji tədqiqatlar abidənin çoxtəbəqəli olduğu və burada yaşayış yerindən başqa kurqan tipli qəbirlər də müəyyən edilmişdir. 2009-cu ildə AMEA Arxeologiya və Etnoqrafiya İnstitutunun Xaraba Gilan arxeoloji ekspedisiyasının ikinci dəstəsi Q.S.İsmayılzadə və B.İ.İbrahimlinin rəhbərliyi altında Sabir kənd ərazisində Sumbatan yaşayış yerinin bir hissəsi olan "Rəsul dərəsi" arxeoloji abidəsində tədqiqatlara başlamışlar. Rəsul dərəsi abidəsinin ümumi ərazisi 6 ha-ya yaxındır. Abidə ümumilikdə Tunc – İlk Dəmir, antik dövrlərinə aid edilmişdir.

2012-ci ildə Bəhlul İbrahimlinin başçılığı altında Erkən orta əsrlərə aid edilən Dəlmə qalasında aparılan arxeoloji tədqiqatlar uğurlu olmuş, həmin dövrün hərb sənətinə, metalişləməyə dair maraqlı mənbələr əldə olunmuş, burada vaxtilə zərbxananın fəaliyyət göstərməsi müəyyənləşmişdir. 2013-2016-cı illərdə Bəhlul müəllim Xaraba Gilan və Aza şəhər yerlərində, Bal dərəsi abidələrində arxeoloji tədqiqiatlar aparmış, maraqlı elmi nəticələr əldə etmişdir.

Bəhlul İbrahimlinin peşəkar arxeoloq kimi elmdə gəldiyi töhfələr öz həmkarları tərəfindən bir mənalı olaraq qəbul edilir. Heç təsadüfü deyil ki, Bəhlul İmran oğlu İbrahimli 2014-cü ildən Avropa Arxeoloqlar Assosiyasının (EAA) üzvü seçilir. Müəyyən illərdə Xaraba-Gilan ekspedisiyasının tərkibində 2 və ya daha artıq dəstə bölgədə tədqiqat aparıb. Bu isə il ərzində ekspedisiya rəisi kimi Bəhlul İbrahimlinin ən azı 3-4 ay arxeoloji qazıntıda iştirakı, çöl-tədqiqiat işləri ilə məşğul olması deməkdir.

2020-ci ildən etibarən 3-cü Plovdağ nekropolunda aparılan qazıntılara Bəhlul İbrahimlinin nəzarəti altında dəstə rəhbəri kimi mən başçılıq edirəm. Son Tunc-İlk Dəmir dövrünə aid nekropolda 14 qəbir tədqiq edilib. 9 daş qutu və 5 kurqandan ibarət bu qəbirlərdə izlənilən dəfn adəti və aşkar edilən materiallar Plovdağ abidələri arasındakı varislik əlaqələrini, təsir və yeni adətlərin meydana gəlməsini öyrənmək üçün çox önəmlidir. 3-cü Plovdağ nekropolunda şərti olaraq 3 saylı adlandırdığımız kurqanın 20-dən artıq qurbangahı vardır. Bəhlul İbrahimlinin fikrincə, bu kurqan deyil, günəş kultu ilə bağlı ibadət yeri olmuşdur. Və məşhur Göbəklitəpənin daha primitiv və ilkin formasını xatırladan bir üslubdadır. Ümid edirik ki, 3-cü Plovdağda önümüzdəki illərdə aparılacaq tədqiqatlar nəticəsində daha maraqlı və elmi dəyəri böyük olan materiallar əldə ediləcəkdir.

Bəhlul İbrahimlinin rəhbərliyi altında "Xaraba Gilan arxeoloji ekspedisiyası" bu gün də bölgədə tədqiqatları davam etdirir. Bu tədqiqatlar zamanı

əldə olunan uğurlar, gəlinən nəticə bölgənin qədim tarixinin üzə çıxarılmasına ciddi bir töhvə verəcəkdir.

7 monoqrafiya, 150-ə yaxın elmi məqalə və tezisin müəllifi olan Bəhlul İbrahimlinin əsərləri ilə tanış olarkən onların nə qədər zəhmət və elmi peşəkarlıqla ərsəyə gəldiyinin şahidi oluruq. B.İ.İbrahimlinin 2000-ci ildə "Средневековый город Киран" adlı monoqrafiyası, 2002-ci ildə "Древние некрополи Хараба Гилана", 2013-cü ildə "Qızılburun nekropolu", 2014-cü ildə "Qədim Ordubad", 2017-ci ildə "Qarabağda Nərgiztəpə arxeoloji abidələr kompleksi", 2020-ci ildə "Naxçıvanın orta əsr şəhər şəhərləri: Aza", 2021-ci ildə "I Plovdağda arxeoloji tədqiqatlar: 2020" adlı kitabları nəşr olunmuşdur. Onun "Средневековый город Киран" ("Orta əsr Kiran şəhəri") adlı monoqrafiyası Xaraba Gilan şəhər yeri haqqında yazılmış ən sanballı əsər hesab edilir və arxeoloqların masaüstü kitablarından biridir. B.İ.İbrahimlinin Q.M.Aslanov və S.M.Qaşqayla müştərək yazdıqları, 2002-ci ildə nəşr edilmiş "Xaraba Gilanın qədim nekropolları" adlı monoqrafiyada Gilançay hövzəsində yerləşən və e.ə. III-I minilliklərə aid edilən "Muncuqlutəpə", "Xalı-keşan", "Mərdangöl", "Plovdağ" və s. nekropollar haqqında, buradakı qəbir abidələri, dəfn adətlərinin xüsusiyyətləri haqqında məlumatlar verilir.

Bəhlul İbrahimlinin Q.İsmayılzadə ilə birlikdə hazırladığı və 2013-cü ildə çap olunan "Qızılburun nekropolu" kitabı abidənin tədqiqat tarixi və əldə edilmiş materialların təqdim edilməsi baxımından çox dəyərli bir əsərdir. Bəhlul müəllimin həmmüəllif olduğu və 2014-cü ildə çap edilən "Qədim Ordubad" adlı kitabda Ordubadın təbiəti, coğrafi mövqeyi, tarixi ilə yanaşı arxeoloji abidələri haqqında materiallar öz əksini tapıb.

2017-ci ildə Təvəkkül Əliyev və Gülanə Əliyeva ilə birlikdə hazırladıqları "Qarabağda Nərgiztəpə arxeoloji abidələr kompleksi" adlı əsər göstərir ki, Bəhlul İbrahimlinin tədqiqatları təkcə Naxçıvanla məhdudlaşmır, Azərbaycan Respublikasının digər bölgələrinin arxeoloji cəhətdən öyrənilməsində də alim yaxından iştirak edir. 2020-ci ildə nəşr olunan "Naxçıvanın orta əsr şəhərləri: Aza" kitabında Gilançayın Araz çayına qovuşduğu ərazidə yerləşən Aza şəhər yerində qeydə alınan və tədqiq olunan tarixi və arxeoloji abidələr haqqında ətraflı məlumat verilir.

Cənubi Qafqazın unikal abidələrindən biri olan Plovdağ yaşayış yeri və nekropolunda 2020-ci ildə aparılmış arxeoloji təqdiqatlara həsr olunmuş "I Plovdağda arxeoloji tədqiqatlar: 2020" adlı kitabı müştərək hazırladıq və həmin kitab 2021-ci ildə nəşr olundu. B. İbrahimlinin dünyanın bir sıra ölkə-

lərində nəşr olunan məqalələrində Gilançay hövzəsi abidələrinin tədqiqi, öyrənilməsi, dövrləşmə, xronologiyası, miqrasiya prosesləri, əhalinin sosial vəziyyəti, məişət və dini həyatı, dəfn abidələri və adətləri, tikinti texnologiyası və s. haqqında çox qiymətli məlumatlar əldə edirik. Bu əsərlərdə bölgədəki abidələrin geniş təhlili verilmiş, arxeoloji materiallar şərh edilmişdir. Misal üçün, 1997-ci ildə Berlində "İran və Turan" adlı nüfuzlu elmi dərgidə nəşr olunan "Xaraba Gilanda arxeoloji qazıntılar" adlı məqalə uzun müddət bölgə arxeologiyası ilə maraqlanan əcnəbi tədqiqatçıların ən çox müraciət etdikləri əsər olmuşdur.

B.İ.İbrahimli məqalələrində Tunc və İlk Dəmir dövrü dəfn adəti zamanı izlənilən "qurbangah" problemini ən çox araşdıran, elmi ictimaiyyətə təqdim edən bir tədqiqatçıdır. "Naxçıvan Abidələri Ensiklopediyasının" müəlliflərindən olan Bəhlul İbrahimli həm də 2011-ci ildən Xəzər Universitetinin təsisçisi olduğu "Azərbaycan Arxeologiyası" jurnalının baş redaktorunun müavinidir. Keçən dövr ərzində jurnalda nəşr olunan elmi məqalələrin demək olar ki, əksəriyyəti onun rəyi ilə çapa təqdim edilmişdir. 2010-cu ildə "Azərbaycan Arxeologiyası" jurnalının Naxçıvan tarixi və arxeologiyasına həsr olunan 1-ci və 2-ci saylarına məsul şəxs Bəhlul İbrahimli olmuş, 40-a qədər elmi məqalədə Naxçıvanın daş dövrü abidələri, eneolit, tunc, orta əsrlər dövrünə aid arxeoloji abidələrdə aparılan tədqiqatlar, Naxçıvan tarixi və etnoqrafiyasına aid araşdırmalar, Naxçıvanda tədqiqat aparan alimlərin yaradıcılığının təhlili öz əksini tapmışdır.

Bəhlul İbrahimli müxtəlif vaxtlarda Respublika və beynəlxalq elmi konfransların və simpoziumların fəal iştirakçısı olmuş, Rusiya Fedarasiyası, Almaniya, Türkiyə, Polşa, Gürcüstan Respublikalarındakı konfranslarda məruzələrlə çıxış etmişdir. "Qafqazın Arxeologiyası, Etnoqrafiyası və Folkloristikası"na həsr olunan beynəlxalq konfranslarda əsas məruzəçi kimi çıxışlar etmiş, region arxeologiyasının aktual problemlərini təqdim etmişdir.

2010-cu ildə Almaniyanın Martin Lüter Universitetində təşkil olunan "Son tunc-ilk dəmir dövründə Cənubi Qafqazda və qonşu rayonlarda qarşılıqlı mədəni əlaqələr" adlı beynəlxalq simpoziumda Bəhlul İbrahimli tərəfindən Naxçıvan ərazisində aşkar edilmiş Son Tunc-İlk Dəmir dövrünə aid qəbir abidələri və artefaktlar nümayiş olunmuş, Cənubi Qafqazda aparılan yeni arxeoloji qazıntılar nəticəsində aşkar edilmiş tapıtılarla Naxçıvan materiallarının müqayisəli təhlili aparılmış, müzakirələrdə sual doğuran bəzi məqamlara

aydınlıq gətirilmişdir. Türkiyə və Polşada keçirilən Avrasiya Arxeoloqlarının Beynəlxalq Konfranslarında da yeniliklərlə dolu qazıntı nəticələrini beynəlxalq elmi ictimaiyyətə təqdim etmişdir.

Elmi fəaliyyətlə yanaşı Bəhlul İbrahimli müxtəlif illərdə Bakı Dövlət Universitetində və Xəzər Univeristetində tələbələr üçün "Arxeologiya" fənnindən mühazirələr oxumuş, pedaqoji fəaliyyətlə məşğul olmuşdur. Hal-hazırda isə AMEA Arxeologiya, Etnoqrafiya və Antopologiya İnstitutunda magistr təhsili alan gənc tədqiqatçılara da arxeologiya elminin sirlərini öyrədir, onlara seçdikləri peşənin necə dəyərli və lazımlı sahə olduğunu aşılayır.

2008-ci ildən AMEA Arxeologiya, Etnoqrafiya və Antopologiya İnstitutu Elmi Şurasının üzvü olan B.İ.İbrahimli 2017-ci ildən həmin İnstitutda "Arxeoloji irsin tarixi və nəzəriyyəsi" şöbəsinin müdiri vəzifəsini uğurla aparır. İnstitutun illik elmi hesabatlarının hazırlanmasında yaxından iştirak edən alim, istər Arxeologiya, Etnoqrafiya və Antopologiya İnstitutunda, istərsə də AMEA Naxçıvan Bölməsində tarix üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim olunan dissertasiyaların müzakirə və müdafiələrində opponent və elmi rəhbər kimi iştirak edir.



**Şəkil 3.** Bəhlul İbrahimli Sankt Peterburqdan olan tədqiqatçılarla (İzmir, Türkiyə. Avrasiya Arxeoloqlarının X Beynəlxalq Konqresi)

Bəhlul İbrahimli Milli Azərbaycan Tarixi Muzeyinin arxeoloji kolleksiyasına dörd yüzdən çox arxeoloji materialı təhvil verməklə, onun zənginləşdirilməsində xüsusi rolu olan məsuliyyətli bir araşıdırmaçıdır. Həmin materiallar Gilançay hövzəsi abidələrindən əldə olunmuş müxtəlif dövrlərə aid qiymətli artefaktlar, böyük elmi əhəmiyyətə malik nadir tapıntılardır. Bunlar müxtəlif keramika nümunələri, tunc və dəmirdən hazırlanmış bəzək əşyaları, silahlar, silindrik möhürlər, parça qalıqları və digər əşyalardır.



**Şəkil 4.** Milli Azərbaycan Tarixi muzeyi. Elmi seminar. (2021-ci il)

Milli Azərbaycan Tarixi Muzeyinin ekspozisiya zallarında ziyarətçilərin marağına səbəb olan muzey materialları içərisində Xaraba Gilandan tapılmış parça qalıqları xüsusi yer tutur. Üzərində Azərbaycan xalçalarında rast gəlinən naxışlar əks olunan yundan hazırlanmış parça qalığı, Səlcuqların üçxal adlandırdıqları nöqtəvari naxışları olan ipək parça qalığı, üzərində müxtəlif rənglərlə bəzədilmiş gül təsvirləri vurulmuş ipək parça, həndəsi fiqurların və haşiyənin daxilində müxtəlif ornament, təsvir və ərəb dilində kitabələr toxunmuş ipək parça, qızıl və gümüş saplarla hazırlanmış parça qalıqları Azərbaycanda parça toxuculuğu sənətinin inkişafını səciyələndirmək üçün qiymətli mənbədir.

Daimi mühafizə üçün muzeyə təhvil verilmiş bəzək əşyaları içərisində tuncdan hazırlanmış pilələr, üzüklər, asma bəzək, boyunbağı, mis məftil, balıqqulağı, pasta və digər materiallardan muncuqlar, tunc sancaqlar, silahlar, dəvəgözü və çaxmaqdaşından ox ucluqları, tunc toppuz başı, Urartu tipli çəki daşı, silindrik möhürlər, dolça, parç, stəkan, küpə, fincan, vaza, qədəh, boşqab, dolça və digər keramika nümunələri də yer alır.

B.İ.İbrahimli Naxçıvanın Tunc-İlk dəmir, antik və orta əsrlər dövrü ilə məşğul olan tədqiqatçıların araşdırmalarında əsərlərinə ən çox müraciət etdikləri müəllifdir. B.İ.İbrahimli öz şəxsi vəsaiti ilə Plovdağda arxeoloji baza tikdirən bir şəxsdir. B.İ.İbrahimli qazıntılarına ziyarətçilərin, qonaqların ən çox gəldiyi arxeoloqlardandır. O, qazıntını ziyarət edən hər kəsə arxeoloji abidə, onun qorunması, arxeoloji materiallara münasibət, bölgənin tarixi və abidələrin yerləşməsi haqqında ətraflı məlumat verir. Onun rəhbərlik etdiyi ekspedisiyada fəhlə kimi çalışan gənclərin əksəriyyəti sonradan Bəhlul müəllimin tövsiyəsi ilə ali təhsil alırlar.

B.İ.İbrahimli gözəl ailə başçısı, sadiq tələbə, əliaçıq dost, onu tanıyan hər kəsin hörmətini qazanmış, ətrafında olanlara daim dəstək olan bir insandır. İmran və Aydanın atası olan Bəhlul İbrahimli bütün şöbə əməkdaşlarının bir növü mənəvi atası missiyasını yerinə yetirir. O, qayğıkeş şöbə müdiri, səbirli müəllim, savadlı alim, zəhmətkeş tədqiqatçı, bütün ekspedisiya üzvlərinin sevimli rəisi, fədakar arxeoloqdur. Mənim arxeoloq kimi formalaşmamda müstəsna xidmətləri olan bir şəxsdir.

2022-ci il Bəhlul İmran oğlu İbrahimlinin 70 illik yubiley ilidir. 70 illik həyatının təqribən 50 ilə yaxın bir dövrünü Gilançay hövzəsinin tarixi və arxeologiyasının öyrənilməsi ilə məşğul olub. Nə xoş mənə ki, 2012-ci il 12 iyul tarixində Bəhlul İbrahimlinin 60 yaşı tamam olanda onunla bir yerdə Dəlmə qalasında arxeoloji qazınıtıda idik. 2022-ci ilin iyul ayında Plovdağda Bəhlul məllimin 70 illik yaşını qeyd etdik. Arzum Bəhlul İbrahimlinin 80 illik yubileyini onunla bir yerdə, yenə də arxeoloji ekspedisiyada qeyd edək.

Bu yazı vasitəsilə bir daha əziz müəllimimi 70 illik yubileyi münasibətilə təbrik edir, ona uzun ömür, can sağlığı, yeni elmi nəaliyyətlər arzu edir, hər zaman yanımızda olduğu və dəstəyi üçün təşəkkür edirəm!

**Summary**

**For the 70th anniversary of archaeologist Bahlul İbrahimli**

**Elvin Aliyev**

The article is dedicated to the 70th anniversary of Ibrahimli Bahlul Imran, an indefatigable researcher of the ancient history and archeology of Nakhchivan. Archaeologist Bahlul Ibrahimli was born on the 12th of July, 1952 in Sabir village of Ordubad region. He studied at the "History" faculty of the Nakhchivan State Pedagogical Institute in 1971-1975. In 1975-1980, he participated in the archaeological excavations conducted by the Nakhchivan archaeological expedition of the Institute of History of the Azerbaijan National Academy of Sci-

ences at Kharaba Gilan City, from 1980 to 1990, he was the deputy chief of the archaeological expedition to Kharaba Gilan. He has been leading the expedition since 2004. In 1993-2017, he worked as a leading researcher in the "Archaeology of Antiquity" department of the Institute of Archeology and Ethnography. Since 2017, he has been appointed head of the "History and Theory of Archaeological Heritage" department. He is the author of 7 monographs, more than 130 scientific articles. At various times, he gave reports at International Scientific Conferences and Symposia in the Russian Federation, Germany, Turkey, Poland and Georgia. The main research object of the scientist was the archaeological monuments of the Gilanchay river. For more than 40 years, Bahlul Ibrahimli has carried out archaeological researches in Bal Dere, Aza, Kharabagilan city, pertaining to the middle ages; in Plovdagh, Khalikeshan, Mardangol, Muncuqlutepe, Delme, Sumbatan, pertaining to the Bronze age and the Iron age and other monuments.
**Keywords:** Bahlul İbrahimli, Nakhchivan, Kharaba Gilan, Ordubad, archaeological expedition, heritage, Aza.

**Резюме**
**К 70-летию археолога Бахлула Ибрагимли**
**Эльвин Алиев**

Статья посвящена 70-летию Ибрагимли Бахлул Имран оглы, неутомимого исследователя древней истории и археологии Нахчывана. Археолог Бахлул Ибрагимли родился 12 июля 1952 года в селе Сабир Ордубадского района. В 1971-1975 годах учился на факультете истории Нахчыванского Государственного Педагогического Института. В 1975-1980 годах участвовал в археологических раскопках, проводимых Нахчыванской археологической экспедицией Института Истории НАН Азербайджана в городе Хараба Гилян, с 1980 по 1990 годы был заместителем начальника археологической экспедиции в Хараба Гилане. Руководит экспедицией с 2004 года. В 1993-2017 годах работал ведущим научным сотрудником отдела «Археология античного периода» Института Археологии и Этнографии. С 2017 года назначен заведующим отдела «Истории и теории археологического наследия». Является автором 7 монографий, более 130 научных статей. В разное время выступал с докладами на международных научных конференциях и симпозиумах в Российской Федерации, Германии, Турции, Польше, Грузии. Член Европейской Ассоциации Археологов (ЕАА) с 2014 года. Основным объектом исследования ученого были археологические памятники реки Гиланчай. Более 40 лет Бахлул Ибрагимли проводил археологические исследования на средневековых памятниках в Бал Дере, Азе, городе Хараба Гилян, в Пловдаге, Халикешане, Марданголе, Мунджуклутепе, Дельме, Сумбатане и других памятниках бронзового и железного веков.
**Ключевые слова:** Бахлул Ибрагимли, Нахчыван, Хараба Гилян, Ордубад, археологическая экспедиция, наследие, Аза.